# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №19 (89) • 21.05.2012


AzadliqRadiosu.az®


**Alim Qasımov «Eurovision»da ifası haqda nə deyir?** səh.2

**Bakdakı hotellər gizli kamera iddiasına cavab verirlər** səh.4

**Azərbaycan və Gürcüstanın monastr mübahisəsi** səh.5

**10 вопросов президенту** səh.7

Ə.Həsənov: **"Eurovision"dan sonra qisas barədə düşünmürük** səh.8

**Evlənmə verilişləri niyə bağlanır?** səh.13


## Maraqlı videolar

- Gül bayramından sonra güllərin aqibəti...
- Gəncədə cümhuriyyət baniləri qəbiristanlıqda əbədiləşdirilib
- Azərbaycana gələn turistlər hansı suvenirləri alırlar?

www.AzadliqRadiosu.az

## MTN-in antiterror əməliyyatında daha 1 nəfər öldürülüb



Milli Təhlükəsizlik Nazirliyinin mayın 16-da Bakıda keçirdiyi əməliyyat nəticəsində 1 nəfər öldürülüb. Nazirlik onun terrorçu olduğunu iddia edir. Əməliyyat gecə saat 11 radələrində metronun «Qara Qarayev» stansiyası yaxınlığındakı beşmərtəbəli binaların birində keçirilib.

səh.3

## Baku Crystal Hall-un sirləri



*Bir neçə gündən sonra qırxdan çox Avropa ölkəsinin ictimai kanalı Xəzər dənizinin sahilində yenicə inşa olunmuş – "Baku Crystal Hall"dan qitənin ən böyük mahnı yarışmasını canlı yayacaq. "Eurovision-2012" mahnı yarışmasının keçiriləcəyi "Crystal Hall"un tikintisinə Azərbaycan prezidenti keçən ilin iyulunda sərəncam verib.*

səh.9-10

## Avropadan Bakıya mesaj: "Gəlin, bundan lokomotiv kimi istifadə edək"



Avropa Birliyinin Genişlənmə üzrə komissarı Stefan Fulebunu mayın 15-də bildirib:
- Gəlin, enerji sahəsindəki əməkdaşlıqda insan haqları və s. əsas hüquq və azadlıqlarla bağlı məsələlərlə də məşğul olaq.

səh.5

**Milçək**



# Alim Qasımov «Eurovision»da ifası haqda: "Necə çıxacaq - o, qismətdir"


Alim Qasımov

**«Məni şəm yandıra bilməz oda, pərvanə kimi. Yurdum Odlar Yurdu, çün Azərbaycanım var!». Bu sözləri tanınmış muğam ustası Alim Qasımov Bakıda keçirilən 57-ci «Eurovision» mahnı müsabiqəsində Azərbaycanı təmsil edən Səbinə Babayevanın oxuyacağı «When the music dies» mahnısında muğam parçası kimi səsləndirəcək.**

**DÜNYANIN QULAĞI MUĞAM EŞİDƏCƏK!**

Tanınmış xanəndə Eurovision.az saytına açıqlamasında bildirib ki, bu müsabiqədə muğamın səslənməsi ona yeni nəfəs gətirəcək: «Bu, mənim üçün çox çətin və məsuliyyətli bir işdir. Muğamın bu səhnəyə çıxışı çox önəmlidir. İştirakçıların qulağı muğam eşidəcək. Bu da bizim muğam sənətinin şöhrətini artıracaq».

**BEYT YEKUNDA SƏSLƏNƏCƏK**

Alim Qasımov «Məni şəm yandıra bilməz oda, pərvanə kimi. Yurdum Odlar Yurdu, çün Azərbaycanım var!» beytini yekunda səsləndirəcəyini söyləyib: «Səbinə xanımla da, sözsüz, bir-iki oxumalar var. O da canlı olacaq. Necə çıxacaq - o, qismətdir».

**ALİM BƏYƏ MƏXSUSİ PALTAR TİKİLİR**

Tanınmış xanəndə müsabiqədəki çıxışı üçün ayrıca paltar da tikildiyini bildirib: «İnşallah, görək necə olacaq! Səhnədə o qədər hərəkət var ki! Adam tuta bilmir. Yəqin televiziyada gözəl görünəcək».

**İŞIQLAR, REJİSSURA FƏRQLİ BİR ŞOUDAN XƏBƏR VERİR**

Alim Qasımov yarışmanın keçiriləcəyi Baku Crystal Hall-ı da çox bəyənib: «Burada ayrı bir əhvali-ruhiyyə var. Maraqlı işlər gedir. İşıqlar, rejissura fərqli bir proqramdan xəbər verir».

İlk variantda fon kimi istifadə olunan muğam parçası son variantda daha da artırılaraq yuxarıda verdiyimiz beyt şəklində mahnını bitirəcək.


Səbinə Babayeva

**SƏBİNƏ: ÇOX XOŞBƏXTƏM!**

Səbinə Babayeva isə səhnədə Alim Qasımovla birgə çıxış etməsini özü üçün böyük şəref adlandırıb: «Azərbaycanın ən böyük ifaçılarından biri ilə çıxış etmək mənim üçün böyük şərəfdir. «Eurovision» səhnəsini Alim Qasımovla bölüşdüyümə görə çox xoşbəxtəm».

Xəbəri eurovision.tv saytı yayıb.

***Sevda İsmayıllı***

# "Eurovision" yarışına görə Bakıda 30 məktəbdə tətil elan edildi

**"Eurovision-2012" müsabiqəsi ilə əlaqədar mayın 21-dən Bakının 30 məktəbində tətil elan olunur. Bakı Şəhər Təhsil İdarəsinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Zəminə Əliqızı Lent.az saytına bildirir ki, məktəblilərin təhlükəsizliyi, həmçinin Bakının mərkəzi hissələrində yarana biləcək sıxlıq səbəbindən Təhsil naziri belə qərar verib.**

Bakının Səbayel, Nəsimi və Yasamal rayonunun orta təhsil müəssisələrində dərslər mayın 29-da başlayacaq. Mayın 31-də isə ənənəvi "son zəng" tədbirləri keçiriləcək.


Camal Əli, Bakı 17 Mart 2012

# Camal Əli Azərbaycanı tərk etdi

*"The Guardian" yazır ki, gənc rokçu Camal Əli mayın 16-da Azərbaycanı tərk edib. Hazırda Berlində olan rok müğənnisi qəzetin əməkdaşı Miriam Elderə deyib ki, əgər Azərbaycanda qalsaydı, onun həyatını məhv edəcəkdilər. Camal Əli bu ilin martında Bakıda gənclər təşkilatlarının mitinqində saxlanmışdı. Onun prezidentin ünvanına təhqiramiz ifadələr işlətdiyi deyilirdi. Xuliqalıq ittihamı ilə 15 sutka həbs cəzası alan musiqiçi 10 gün sorna azad edilmişdi.*

24 yaşlı Camal Əli "The Guardian"a bildirib ki, yalnız "Eurovision-2012" mahnı yarışı ərəfəsi olduğu üçün canını həbsdən qurtara bilib. Onun sözlərinə görə, polis idarəsində saxlanarkən ilk 2 gündə işgəncələrə məruz qalıb. Başına torba keçirərək onu dəyənəklə döyüblər: "Onlar məni döyə-döyə deyirdilər ki, xoşun gəlmir, .cəhənnəm ol, get. Ölkədən çıxıb rədd olmağın üçün hər şeyi edəcəyik. Həbsdən çıxandan sonra da 24 saat evimin ətrafında "Hyundai" markalı qara maşında polis növbə çəkirdi. Daha uzun müddətə həbs edilmək təhlükəsi olduğu üçün ölkəni tərk etdim".

O, əlavə edir ki, "Eurovision-2012" yarışı başa çatan kimi onu prezidenti təhqir ittihamı ilə 2 ildən 5 ilə qədər həbs edə bilərdilər. Camal Əlinin ölkəni tərk etməsindən bir qədər əvvəl onun Bulistan qrupu "Vermişel" adlı videoklipi YouTube şəbəkəsinə yerləşdirib. Bu klipdə Azərbaycan hakimiyyəti kəskin tənqid olunur.

Qəzet yazır ki, indi Azərbaycanda fəalların çoxu gələn şənbə "Eurovison-2012" başa çatandan sonra sərt cəza tədbirlərinin olacağını gözləyir.

Camal Əlinin iddialarına hələlik rəsmilərdən bir reaksiya almaq mümkün olmayıb. Amma Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov bu günlərdə insan haqlarının vəziyyətinə görə Azərbaycanın ünvanına səslənən ittihamları rədd edib. O, deyib ki, belə ittihamlar erməni lobbi qruplarının dəstəyi ilə Azərbaycanı gözdən salmaq cəhdidir.

# MTN-in antiterror əməliyyatında daha 1 nəfər öldürülüb


Arxiv foto

**Milli Təhlükəsizlik Nazirliyinin mayın 16-da Bakıda keçirdiyi əməliyyat nəticəsində 1 nəfər öldürülüb. Nazirlik onun terrorçu olduğunu iddia edir. Əməliyyat gecə saat 11 radələrində metronun «Qara Qarayev» stansiyası yaxınlığındakı beşmərtəbəli binaların birində keçirilib. Ərazidə yaşayan sakinlərin dediyinə görə, əməliyyat zamanı silahlı toqquşma baş verib. Güc strukturları ərazini bir neçə saat mühasirədə saxlayıb. MTN-in İctimai Əlaqələr Mərkəzinin rəhbəri Arif Babayev AzadlıqRadiosuna bildirib ki, Azərbaycanın milli maraqlarına və təhlükəsizliyinə mümkün təhdidlərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirilir, antiterror əməliyyatları davam etdirilir.**

**«BU ƏMƏLİYYATLAR ÇOX HAY-KÜYLÜ HƏYATA KEÇİRİLİR»**

Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri İlham İsmayıl da deyir ki, Azərbaycan istər milli, istərsə də dini zəmində beynəlxalq terrorizmin hədəfində olan ölkədir: «Ölkə bu və digər şəkildə hədəfdədir. Həqiqətən Azərbaycanda dini qruplaşmalar var və bu qruplaşmaların radikal terrorçu hərəkətlər etməsi zaman-zaman görünüb, sübut olunub. Bəziləri zərərsizləşdirilib, bəziləri yox. Sadəcə olaraq, son vaxtlar burda xoşagəlməz tendensiya var. Bu əməliyyatlar çox hay-küylü həyata keçirilir. Əməliyyatlar binalarda keçirilirsə, müxtəlif metodlar var ki, bu, sakitliklə keçirilsin.

Həmin adamların zərərsizləşdirilməsi üçün müxtəlif metodlar var, nəinki əməliyyatın ölümlə nəticələnməsi. Artıq bundan əvvəl Gəncədə də ölüm olmuşdu».

**«BAXIN, BİZDƏ İSLAM TƏHLÜKƏSİ VAR»**

«Şərq-Qərb» Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu isə deyir ki, bu əməliyyatların arxasında müəyyən siyasi məqsədlər də dayanır: «İndi Azərbaycan öz daxili siyasətinə görə intensiv şəkildə tənqid olunur. Bütün bunlar Qərbə nümayiş etdirməkdir ki, baxın, bizdə İslam təhlükəsi var. Siz isə bizi insan haqları, demokratik dəyərlərlə bağlı sıxırsınız. Ümumiyyətlə, Azərbaycanda terror təhlükəsi ilə bağlı bütün bu tipli əməliyyatların arxasında həmişə olmasa da, bir çox hallarda məhz siyasi məqsədlər dayanır».

***Kəbiran Dilavərli***

# Aclıq aksiyası davam edir

*İctimai Palatanın 12 üzvü aclıq aksiyasını davam etdirir. Onlardan 7-si qadın, 5-i kişidir. Bu haqda məlumatı AzadlıqRadiosuna aclıq edənlərdən biri, sabiq baş nazir Pənah Hüseyn verib. Onun sözlərinə görə, mayın 19-da aksiya iştirakçılarından biri Əli Həsənov aclığı dayandırmalı olub. Əli Həsənovun səhhəti pisləşib. Ona həkim çağırılıb. Qan təzyiqi yüksək olan aksiyaçıdan həm həkimlər, həm də yoldaşları aclığı dayandırmasını xahiş ediblər.*

Pənah Hüseyn deyir ki, mayın 21-dən aksiyaya yeni adamlar qoşulacaq. Aclıq aksiyası mayın 15-dən keçirilir. Aksiya


İP üzvlərinin aclıq aksiyası (16 may 2012)

iştirakçıları ötən ilin aprelində İctimai Palatanın mitinqi zamanı həbs olunan müxalifətçilərin və beynəlxalq qurumların «vicdan məhbusu» kimi tanıdığı başqalarının azadlığa buraxılmasını tələb edirlər.



# İranın Azərbaycandakı səfirliyi aksiyalarla bağlı bəyanat yayıb

*Mayın 11-də yüzdən çox gənc İranın Bakıdakı səfirliyi qarşısında etiraz aksiyası keçirib. «İrana ar olsun», «İslam belə olmur», «İran Azərbaycana terrorçu, narkotik və ekstremist göndərir», «İranda 35 milyon azərbaycanlının hüquqları pozulur» və sair şüarlar səsləndiriblər. Mayın 16-da isə Dünya Azərbaycanlıları Konqresi və Beynəlxalq Diaspor Mərkəzi aksiya keçirib. Siyasi şüarlar səsləndirən aksiya iştirakçıları İranı Azərbaycana qarşı təxribatlara son qoymağa və həbs olunmuş fəalları azad etməyə çağırıblar.*

İranın Azərbaycandakı səfirliyi mayın 11-i və 16-da səfirlik qarşısında keçirilən aksiyalar barədə bəyanat yayıb. Bəyanatda mayın 11-i gənclərin aksiyası zamanı dini lider Ayətullah Xamneyinin təhqir edildiyi iddia olunur: «Bu aksiya sifariş olmaqla yanaşı, regionda Qərb və sionist dairələrin yaratdığı antiislam cərəyanları ilə əlaqələndirilmiş və uyğunlaşdırılmış plandır. Dünyanın digər yerində «Qurani-Kərim»in dinsiz ekstremistlər tərəfindən yandırıldığı bir zamanda müsəlman və şiə ölkəsi Azərbaycanda dünya şiələrinin rəhbərinin, vilayəti fəqihin ünvanına təhqiredici ifadələrin söylənilməsi təəssüf hissi doğurur».

**SƏFİRLİK AKSİYA TƏŞKİLATÇILARINI XƏBƏRDARLIQ EDİB**

Bəyanatda həmçinin qeyd edilir ki, Azərbaycan Respublikası dövləti bu kimi təhqirlərə dərhal reaksiyasını bildirməli və onun iştirakçılarını cəzalandırmalıdır: «Gözləntilərə rəğmən aidiyyəti məsul şəxslərin növbəti ehtiyatsızlıq edərək bu nümayəndəliyin binası önündə 16 may tarixində növbəti aksiyanın keçirilməsinə imkan vermələri təəssüf hissi doğurur».

# Əvəz Zeynallı: «Deputatın telefonuna yazılan SMS-lərim saxtalaşdırılıb»


Əvəz Zeynallı

**Mayın 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində «Xural» qəzetinin həbsdə olan baş redaktoru Əvəz Zeynallının məhkəməsinə hazırlıq iclası davam edib. Prosesə hakim Ramella Allahverdiyeva sədrlik edir. Proses başlanan kimi hakim zalda əyləşənlərə xəbərdarlıq etdi ki, zalda audio və videoyazı qadağandır. Vəkil Elçin Sadıqovun Əvəz Zeynallının dəmir barmaqlıqlar arasından çıxarılaraq vəkillərin yanında əyləşdirilməsi ilə bağlı vəsatəti də təmin olunmadı.**

### «MƏNİM TELEFONUMDAN DEPUTATA SAXTA SMS-LƏR GÖNDƏRİLİB»

Əvəz Zeynallı və vəkilləri məhkəməyə daha bir neçə vəsatət təqdim etdilər. Bu vəsatətlərdən biri Əvəz Zeynallının telefonundan deputat Gülər Əhmədovanın telefonuna yazılmış SMS-lərin sübutlar siyahısından çıxarılması ilə bağlı oldu. Əvəz Zeynallı dedi ki, həmin SMS-lərdən xəbəri yoxdur və onlar saxtadır.

Əvəz Zeynallı: «Məni həbs edən insanlardan biri telefonumdakı mesaj qutusundakı mesajları oxuyurdu. Mən ona bildirdim ki, mənə məxsus mesajı başqası oxuya bilməz. Ancaq o adam güldü və dedi ki, nəinki oxuya bilər, hətta istədiyi telefona mesaj da göndərə bilər, istədiyi telefondan sizin telefona mesaj da yaza bilər. İstintaq vaxtı bu məsələdə müstəntiqin saxtalaşdırmasının şahidi oldum. Çünki mən deputata göndərmədiyim mövzuda SMS-lərlə qarşılaşdım. Mənim ona, onun da mənə göndərdiyi mesajları yaxşı bilirdim. Telefonumdan məndən xəbərsiz mesajlar yazılıb, ondan da mənə yazılıb. Ancaq bildirirəm ki, bu mesajları kənar müdaxilə ilə saxta yolla telefonumdan göndəriblər və telefonuma daxil ediblər. Mən həmin mesajların sübutlar siyahısından çıxarılmasını tələb edirəm».

### «KONSTİTUSİYA GİZLİ SƏS YAZILMASINI YASAQ EDİR»

Başqa bir vəsatət deputat Gülər Əhmədovanın Əvəz Zeynallı tərəfindən şantaj olunması haqda istintaq orqanına təqdim etdiyi CD ilə bağlı oldu. Əvəz Zeynallı: «Konstitusiya şəxsin səsinin gizli yazılmasını yasaq edir. Deputat da səsimi gizli yazıb, o, sübut növü kimi qəbul edilə bilməz».

Sonra dövlət ittihamçısı Vüsal Orucov müdafiə tərəfinin həm ötən, həm də hazırkı hazırlıq iclasında verdikləri vəsatətlərə münasibət bildirərək onların təmin olunmamasını xahiş etdi. Dedi ki, bu işdə adı olan Gəncənin icra başçısı Elmar Vəliyevin məhkəmədə şahid kimi iştirakı məsələsinə isə baxıla bilər. Müdafiə tərəfinin təqdim etdiyi 15-dən artıq vəsatətə münasibət bildirmək üçün müşavirə otağına yollanan hakimlər cəmi 4 dəqiqədən sonra məhkəmə zalına qayıtdılar. Hakim Ramella Allahverdiyeva vəsatətlərin təmin olunmadığını bildirdi və məhkəmə iclasını mayın 31-nə təyin etdi.

***Esmira Cavadova***

# Bakıdakı hotellər gizli kamera iddiasına cavab verirlər


Arxiv foto

### 7 HOTELDƏN GİZLİ VİDEO CAVABI

Biznes və İnsan Haqları Resurs Mərkəzi "Eurovision 2012" mahnı yarışı günlərində Bakıda fəaliyyət göstərən hotellərdə otaqlara gizli kameralar yerləşdirilməsi haqda iddiaları araşdırıb. Bu ilin martında Azad Gənclik Təşkilatı Bakıya gələcək turistlərə müraciət edərək, onları hotel otaqlarında sekslə məşğul olmaqdan çəkinməyə çağırıb. Təşkilat qeyd edib ki, Azərbaycanda hökumət onu tənqid edənlərin qaldıqları yerlərə kamera quraşdırıb sonradan onları həmin videolarla təhdid edir.

Biznes və İnsan Haqları Resurs Mərkəzi Azərbaycanda fəaliyyət göstərən 7 böyük hotel şəbəkəsinə müraciət edərək onlardan bu mövzuda fikirlərini soruşub. Qurumun müraciətinə Excelsior Hotel Baku, Hilton, Hyatt, Kempinski, Radisson, Ramada Hotel Baku, Sheraton Hotels cavab verib. Onların əksəriyyəti qeyd edirlər ki, belə iddialardan onlar da xəbərdardırlar və müştərilərinin şəxsi həyatlarına müdaxilə olunmamağı üçün əllərindən gələni edirlər.

### HOTELLƏR MÜQAVİMƏT GÖSTƏRƏ BİLƏCƏKMİ?

Biznes və İnsan Haqları Resurs Mərkəzinin direktoru Christopher Avery deyir ki, onlar hotelləri hökumət qurumlarından gələ biləcək kamera quraşdırılması cəhdlərinə müqavimət göstərəcəklərinə ümid edir:

- Biz ümid edirik ki, hotellər şəxsi həyat toxunulmazlığı hüquqlarının pozulması ilə müşayiət olunan və hökumətin öz tənqidçilərinin gözünü qorxutmaq üçün istifadə etdiyi hotel otaqlarına kamera quraşdırılması cəhdlərinə qarşı çıxacaqlar. Əgər hotel otaqlarına gizli kameralar yerləşdirildiyi barədə xəbərlər gəlsə, biz bu məsələni həyəcan təbili ilə jurnalistlərin, sərmayəçilərin, turist agentliklərinin və BMT-nin biznes, insan haqları ilə məşğul olan qurumlarının diqqətinə çatdıracağıq.

### GİZLİ KAMERA TARİXÇƏSİ

Biznes və İnsan Haqları Resurs Mərkəzi qeyd edir ki, Azərbaycanda son 1 ildə azı 2 tənqidçi jurnalistin yataq otağı gizli kameralarla çəkilib. Bəzi hallarda həmin videokadrlar prezident İlham Əliyevin əmisi oğlunun sahibi olduğu telekanalda nümayiş olunub. Qurum həmçinin Azərbaycanda insan haqları problemləri ilə bağlı "Eurovision" mahnı yarışmasının korporativ sponsorlarına da müraciət edib, onlardan aldığı cavabı isə "Eurovision-2012"nin finalından 3 gün əvvəl – mayın 23-də yayacaq.



Stefan Fule

# Avropadan Bakıya mesaj: "Gəlin, bundan lokomotiv kimi istifadə edək!"

**"Azərbaycan Avropa Birliyi ilə strateji tərəfdaşlıqda çox maraqlıdır. Onlara mesajımız budur ki, biz işbirliyimizin çərçivəsini genişləndirib enerji məsələlərinə dair strateji tərəfdaşlığımızın sərhədlərindən kənara çıxarmaqda çox maraqlıyıq".**

Avropa Birliyinin Genişlənmə üzrə komissarı Stefan Fulebunu mayın 15-də bildirib:

- Gəlin, enerji sahəsindəki əməkdaşlıqdan bir lokomotiv kimi istifadə edərək, işbirliyimizi başqa sahələrə də genişləndirək. Gəlin, bu genişmiqyaslı yanaşmada insan haqları və s. əsas hüquq və azadlıqlarla bağlı məsələlərlə də məşğul olaq. Mesajımız aydındır: "Avropa Birliyi ilə strateji tərəfdaşlığa nail olmağın yolu budur".

Avropa Birliyi özünün cənubundakı və şərqindəki bir sıra ölkələrə, o cümlədən Azərbaycana daha sıx əməkdaşlıq təklif edib. Bu, əməkdaşlıq ya birliyə üzvlük, ya da onunla iqtisadi, siyasi sahədə sıx inteqrasiya ilə nəticələnə bilər. Birlik bundan ötrü həmin ölkələrdən insan haqları və iqtisadi sahədə islahatlar istəyir.

# Azərbaycan və Gürcüstanın monastr mübahisəsi

**Gürcüstanda David Qareci - Azərbaycanda Keşişdağ adlanan monastr kompleksinin bir hissəsinin – Udabno monastrının hansı dövlətə aid olmasıyla iki dövlət arasında heç bir mübahisə yoxdur. Gürcüstan Xarici İşlər Nazirinin müavini Nino Kalandadze bu gün yaydığı bəyanatda bildirib ki, daha öncə onun açıqlamaları təhrif olunaraq mediada yer aldığından ictimaiyyətdə yanlış reaksiya doğurub. Kalandadzenin sözlərinə görə, əslində Gürcüstan və Azərbaycan hökumətlərarası komissiyasının dövlət sərhədlərinin müəyyənləşdirilməsi - delimitasiyası prosesi hələ davam edir. Bu günədək sərhədlərin 98 faizi razılaşdırılıb. Yerdə qalan 2 faizdə isə David Qareci monastr kompleksinin ərazisindəki Udabno monastrıdır. Udabno monastrı isə Sovet dövründən Azərbaycanın ərazisinə düşüb.**

Kalandadzenin sözlərinə görə, təxminən on gün əvvəl Azərbaycan sərhədçiləri Gürcüstan tərəfə bildiriblər ki, məbədin Udabno adlandırılan ərazisinə yalnız din adamları və sərhədçilər buraxılacaq və nazirlik məbədin ziyarətçilərinin də ora sərbəst gediş-gəlişini təmin etməyə çalışır. Nino Kalandadze bildirib ki, Azərbaycan tərəfi heç vaxt David Qareci kompleksinin kimə məxsus olması məsələsini qaldırmayıb və bu məbədin Gürcüstanın tarixi abidəsi olması şübhə doğurmur.

Nazir müavini deyir ki, hazırda danışıqlar yolu ilə monastr kompleksinin Azərbaycan sərhədləri içərisində qalan kiçik bir hissəsi – Udabno monastrının da Gürcüstana birləşdirilməsi üçün cəhdlər davam edir.

### GÜRCÜSTANDA BƏZİLƏRİ MONASTRIN AZƏRBAYCANA VERİLDİYİNİ İDDİA EDİR

Gürcüstanda tarixçilərin bir çoxu monastrın hər zaman Gürcüstan torpağı olduğunu bildirir, ancaq məsələyə fərqli yanaşanlar da var. AzadlıqRadiosunun Tbilisidəki müxbiri Jimshir Rekhiashvili deyir ki, bəzi tarixçilər 1929-cu ildə Serqo Orconokidzenin təsdiq etdiyi xəritədə monastr kompleksinin bir hissəsinin Azərbaycana verildiyini və indi bu ərazini Azərbaycan ərazisi kimi tanıyıb, sonra torpaqların dəyiş-düyüşü yolu ilə məsələni həll eləməyə çağırırlar. Ötən həftə Gürcüstanda media və bəzi müxalifət qüvvələri prezident Mixeil Saakaşvilinin torpaqları sağa-sola paylamaqda ittiham edirdilər. Gürcüstan müxalifətinin liderlərindən milyarder Bidzina İvanişvilinin "Gürcü arzusu – demokratik Gürcüstan" Partiyasının fəallarından olan keçmiş ombudsman Sozar Subari də monastr məsələsi ilə bağlı Kaxetiyaya səfər edib, yerli ruhanilər və sakinlərlə görüşmüşdü. Və bu, Gürcüstandakı parlament seçkilərinə hazırlıq dövründə Saakaşvilinin partiyasına qarşı istifadə edilən arqumentlərdən biri ilə bağlı mayın 14-də Tbilisidəki Azərbaycan səfirliyi qarşısında etiraz aksiyası keçirilməsi də nəzərdə tutulurdu. Ancaq heç bir aksiya olmamışdı.



David Qareci monastrı

Bu qalmaqaldan sonra bu həftə Gürcüstan Daxili İşlər Nazirliyinin sözçüsü Shota Khizanishvili yerli mediaya bildirib ki, «Azərbaycan dini xadimlərinin David Qareci monastr kompleksinə girişini əngəlləməyib». Kompleksin bir hissəsi Azərbaycan ərazisində olduğundan ziyarət etmək istəyənlər buraxılış məntəqəsindən keçməlidirlər.

### DAVİD QARECİ GÜRCÜLƏR ÜÇÜN NİYƏ MÜQƏDDƏSDİR?

Dağ yamacında 20 kilometrlik böyük ərazidə yerləşən və yüzlərlə obyektdən – yaşayış evi, hücrə, kilsə və s. tikililərdən ibarət olan kompleksin əsası 6-cı əsrdə qoyulub. Assuriyalı rahiblər Gürcüstana gələrək burada xristianlığı yaymağa başlayıblar və Kaxetiyada tikilən monastır bu işdə "ilk qaranquş" olub. Buna görə də gürcülər üçün monastır müqəddəs bir ziyarətgah sayılır. Monastr monqol istilası, daha sonra başqa hücumlar nəticəsində bir neçə dəfə dağıdılsa da, yenidən bərpa edilib.

***Rövşən Qənbərov, İlkin Məmmədov***

# Hakimiyyət nümayəndələri onları tənqid edənlərin tədbirinə qatıldı


Volker Beck

*Mayın 16-da Bakıda keçirilən Azərbaycanda insan hüquqlarına həsr olunmuş «Demokratiya üçün oxu» (Sing for democracy) adlı konfransda xarici qonaqlarla Azərbaycan rəsmiləri arasında polemika yaranıb. «Eurovision» mahnı yarışması ərəfəsi təşkil olunan tədbirdə Almaniya parlamentinin üzvü Volker Beck deyib ki, «Azərbaycanda media azadlığı yoxdur, bu ölkə demokratik ölkə kimi təqdim edilə bilməz».*

**BAKI PARİSLƏ DUBAY ARASINDA**

Azərbaycanın Avropada beynəlxalq imici barədə danışan almaniyalı deputat Bakıda aparılan təmir-abadlıq işlərinə də toxunub. Deyib ki, Bakı Parislə Dubay arasında sanki mübarizə aparır. Amma o, divarları ağartmaqla, yolları təmir etməklə ölkəyə demokratiya donu geydirməyin mümkün olmayacağını deyib.

Volker Beckə görə, Azərbaycan hakimiyyətinin «Eurovision» mahnı yarışmasından siyasi bir təbliğat kimi istifadə etməsi əslində bu ölkənin azad olmamasının göstəricisidir. Volker Beck çıxışında bir neçə dəfə Azərbaycan prezidentini «avtokratik rejimin rəhbəri» adlandırdı.

**«İLHAM ƏLİYEVİN ŞƏXSİYYƏTİNİ, DÜNYADAKI NÜFUZUNU TƏFTİŞ ETMƏK LAZIM DEYİL»**

Almaniyalı deputatın bu çıxışı tədbirdə iştirak edən hakimiyyət təmsilçilərinin etirazına səbəb oldu. İlk reaksiya Prezident Administrasiyasının şöbə müdirinin müavini Vüqar Əliyevdən gəldi: «Prezident İlham Əliyevin şəxsiyyətini, dünyadakı nüfuzunu təftiş etmək lazım deyil. İlham Əliyevin kifayət qədər nüfuzu da var. Bütün dünya onu qəbul edir. Azərbaycan xalqı da onun arxasında durub və istənilən yerdə öz fikrini demək və qəbul olunmaq iqtidarına malikdir. Söhbət Azərbaycanda işgəncələrdən və insanların həyatlarının pozulmasından gedirsə, xahiş edirəm, Almaniyadan danışın. Görək, orda başları kəsilən türklərin başları yerinə tikildimi, məscidlərdə çəkilən xaçlar pozuldumu?».

**«60 MİN İDİSƏ, NİYƏ 1200 ADAM VAR İDİ»**

Vüqar Əliyev Azərbaycanda insanların mülkiyyət hüququnun pozulması haqda səslənən mənfi fikirlərə də münasibət bildirdi: «Deyirlər ki, Bakıda 60 min adamın mülkiyyət hüququ pozulub. Müxalifət bu yaxınlarda iki mitinq keçirdi. 60 min adamın mülkiyyət hüququ pozulubsa, niyə mitinqlərinə 1200-dən çox adam yığa bilmirdilər?».

Tədbirdə «Sərhədsiz Reportyorlar» Təşkilatının ünvanına da tənqidi fikirlər səsləndirildi. «Səs» qəzetinin baş redaktoru Bəhruz Quliyev adıçəkilən təşkilata sual da ünvanladı: ««Sərhədsiz Reportyorlar» niyə mahnı müsabiqəsi keçiriləndə demokratiyanı yada salır?».


Vüqar Əliyev

«SƏRHƏDSİZ REPORTYORLAR»:
**BİZ HAMIDAN YAZIRIQ**

«Sərhədsiz Reportyorlar»ın nümayəndəsi Ingo Petz isə təmsil etdiyi təşkilatın nəinki Azərbaycana, ümumiyyətlə, heç bir ölkəyə qərəzli münasibəti olmadığını, gördükləri işin də davamlı bir iş olduğunu qeyd etdi: «Biz bu işi «Eurovision» qabağı deyil, hər gün görürük. Sadəcə, indi Azərbaycan mahnı yarışması ərəfəsində Almaniya və İngiltərə mediasında daha çox tənqid edilir».

Təşkilat nümayəndəsi xarici jurnalistləri Azərbaycanın bütün problemlərindən, insan hüquqlarından tutmuş, tarixinə qədər bütün məsələlərdən yazmağa səslədi.

**MƏTBUATIN YEGANƏ PROBLEMİ**

Mətbuat Şurasının sədri Əflatun Amaşov da Azərbaycanda mətbuat və söz azadlığı ilə bağlı problemin olmadığını bildirdi: «Kim deyirsə ki, Azərbaycanda, ümumiyyətlə, söz və mətbuat azadlığı yoxdur, mən onlarla razılaşmıram. Mən deyərəm ki, bu gün Azərbaycanda söz və mətbuat azadlığı var».

Əflatun Amaşova görə, Azərbaycanda mətbuatın yeganə problemi onun iqtisadi azadlığının olmamasıdır.

**6 MİLYONA 157 AVTOBUS**

İqtisadçı Natiq Cəfərli də çıxışında ölkədə mövcud bütün problemlərin kökündə azad iqtisadiyyatın olmadığını dedi. İqtisadçı «Eurovision» mahnı yarışması ilə əlaqədar dövlət büdcəsindən ayrılan 6 milyon manata 157 avtobusun alınmasını da iqtisadi azadlığın olmaması ilə əsaslandırdı.

O bildirdi ki, ölkədə azad iqtisadiyyat, azad sahibkarlıq inkişaf etsəydi, həmin avtobuslar müstəqil şirkətlər tərəfindən gətirilərdi.

**ŞƏXSİ HƏYAT, YOXSA...**

Azərbaycanın Avropa Məhkəməsindəki nümayəndəsi Çingiz Əsgərov isə əsl demokratiyanın Azərbaycanda olduğunu bildirdi. O, AzadlıqRadiosunun jurnalisti Xədicə İsmayılovaya təzyiqlərlə bağlı məsələyə də toxundu: «Araşdırmaçı jurnalist özü kiminsə şəxsi həyatını araşdırır, amma özü ilə bağlı məsələyə gələndə deyir ki, mənim şəxsi həyatımdan heç kim yaza bilməz».

Jurnalist Xədicə İsmayılova isə bildirdi ki, o, prezidentin qızlarının şəxsi həyatını deyil, onların biznes fəaliyyətini araşdırıb. Hüquq müdafiəçisi Samir Kazımlı isə tədbirin sonunda ölkə prezidentinin yerli jurnalistlərə bir dəfə də olsun müsahibə vermədiyini qeyd etdi: «Mətbuat və söz azadlığının yüksək səviyyədə olduğunu deyənlər yaxşı olar ki, bu faktı da nəzərdən qaçırmasınlar».


Çingiz Əsgərov

«Sing for democracy» kampaniyası Azərbaycanın 2011-ci il «Eurovision» mahnı yarışmasındakı qələbəsindən 2 ay sonra 30-dan artıq yerli hüquq-müdafiə təşkilatı tərəfindən başlanılıb. Məqsəd beynəlxalq musiqi yarışmasından istifadə edib diqqəti Azərbaycandakı insan haqlarının durumuna cəlb etməkdir. Kampaniya çərçivəsində indiyə qədər insan və mülkiyyət hüquqlarına həsr olunmuş 10-dan artıq tədbir keçirilib.

***Maarif Çingizoğlu***

# 10 вопросов президенту



**Накануне проведения международного конкурса песни Eurovision в Баку выросло количество дискуссий между представителями властного и оппозиционного лагеря, а также подконтрольных им СМИ. Основная тема дискуссий – проведение акций протеста накануне и во время проведения конкурса, и как это может отразиться на имидже Азербайджана в мире.**

Президент Азербайджана Ильхам Алиев заявлял, что победа на конкурсе и получение права проведения самого конкурса Eurovision в Баку повысило престиж и узнаваемость Азербайджана в мире.

Не принадлежа ни к тому, ни к другому лагерю, хочу задать президенту несколько возникших в связи с этим вопросов. К сожалению, Алиев не проводит пресс-конференций с участием независимых азербайджанских журналистов, не дает им интервью, поэтому приходится задать вопросы здесь:

**1.** Насколько сильно Вас волнует имидж и престиж Азербайджана в мире в связи с проведением конкурса Eurovision?

**2.** Какое значение имеет для Азербайджана проведение Eurovision, если у «Азербайджана свой, особый путь развития», как Вы говорили?

**3.** Представители Вашей администрации и правящей партии не раз заявляли, что низкие рейтинги Азербайджана в отчетах международных организаций - это следствие их «необъективности», а также «влияния армянского лобби». Почему же эти факторы оказались бессильны в случае проведения Eurovision в 2011 году?

**4.** Знаете ли Вы о массовых нарушениях прав человека, в частности прав собственности на квартиры и дома, снесенные как раз накануне проведения Eurovision в Баку, которые освещали и зарубежные СМИ?

**5.** Как Вы оцениваете, господин президент, ущерб, нанесенный этими нарушениями, имени Азербайджанской Республики?

**6.** Насколько Вас волнует имидж и престиж Азербайджана в связи с нарушениями прав человека, верховенства закона, и распространением коррупции в стране, если сравнивать это в связи с Eurovision?

**7.** Кто вредит имиджу и престижу Азербайджана в мире – те, кто говорят о нарушениях закона и преступлениях в стране, то есть журналисты, или те, кто массово нарушает закон и совершает преступления, то есть чиновники? Считаете ли Вы себя ответственным, как президента, в связи с нарушениями закона и хищениями, сделанными большими и малыми чиновниками?

**8.** Как Вы оцениваете связь между защищенностью – социальной, правовой, политической - населения государства, главой которого Вы являетесь, и имиджем и авторитетом страны? Может ли быть высок авторитет у государства в наше время, в 21-ом веке, если права населения систематически нарушаются?

**9.** Вы дали обещание сразу после убийства Эльмара Гусейнова 7 лет назад, что «преступление будет раскрыто, а убийцы наказаны». Контролируете ли Вы течение следствия, представители которого за последние годы не говорят ничего нового общественности, кроме того, что «это следственная тайна»?

**10.** Собираетесь ли Вы помиловать накануне Eurovision заключенных – членов оппозиционных партий и молодежных активистов, которые уже год находятся в заключении в связи с организацией митингов – Арифа Гаджили, Шаина Гасанли, Турала Аббаслы, Сахиба Керимли, Ахада Мамедли и многих других?

***Чингиз Султансой***

# О "теплоте" Eurovision

**Европейский вещательный союз ( EBU), на следующей неделе проводящий Eurovision в Баку, должен воспользоваться своем влиянием, чтобы предпринять меры в связи с ужасающими нарушениями прав человека в Азербайджане, пишет в британской The Guardian Хью Уильямсон из правозащитной организации Human Rights Watch.**

«Eurovision дарует европейцам теплое чувство общности, хотя бы на один вечер. Основная обязанность его организатора - защита и отстаивание права на свободу самовыражения - предполагает, что он должен воспользоваться этим случаем, чтобы встать на защиту прав человека в этой стране. Но пока очевидно, что он решил не делать этого», - говорится в статье.

«Режимы, подобные азербайджанскому, зачастую жестоки и коварны, и необходимо международное давление, чтобы они прекратили ограничения свободы самовыражения людей», - продолжает автор.

Human Rights Watch последние 10 месяцев пыталась объяснить EBU «серьезность ситуации в Азербайджане и необходимость говорить открыто». Организация просила поднять вопрос




о заключенных и преследуемых журналистах, и открыто поддержать усилия «храброго гражданского общества» в Баку, стремящегося провести свои мероприятия на неделе, предшествующей Eurovision.

«Такие шаги разозлили бы Азербайджан, и, по нашему мнению, это стало причиной отказа EBU, который сослался на свою аполитичность», - пишет автор.

# Ə.Həsənov: "Eurovision"dan sonra qisas barədə düşünmürük"

## Prezident Administrasiyasının şöbə müdiri ziyalılarla, müxalifətlə, QHT-lərlə görüşəcəyini deyir



Arxiv foto: Əli Həsənov

***"Yeni Müsavat" qəzeti Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovdan müsahibə götürüb. Həmin müsahibəni qısa ixtisarla təqdim edirik.***

**- Əli müəllim, "Eurovision" ərəfəsində Azərbaycanda ən azı vicdan məhbusları ilə bağlı addımların atılacağı barədə ictimai-siyasi qüvvələrin, İctimai Palatanın gözləntiləri var idi. Qarşıdakı zaman kəsiyində bu gözləntilər çin ola, 28 May münasibətilə əfv imzalana bilərmi?**

- Biz heç nəyi "Eurovision"la bağlamaq istəmirik, "Eurovision"u da siyasiləşdirməyin tərəfdarı deyilik. Dəfələrlə bəyan etmişik ki, biz "Eurovision"a görə heç nəyi etməyəcəyik. Biz "Eurovision"a görə öz görüntümüzü, öz siyasətimizi, vətəndaş münasibətlərimizi, insanların bizimlə bağlı irəli sürdüyü iradəni dəyişməyəcəyik.

O ki qaldı adını çəkdiyiniz insanların əfv olunması məsələsinə, onların azadlığa çıxmasının hansısa günlə bağlanmasına, bu haqda, əlbəttə, mən heç bir şey deyə bilmərəm. Azərbaycanda olan Əfv Komissiyası mütəmadi işləyir, təkliflər hazırlayır. Ölkə başçısının da humanist siyasəti indiyə qədər necə olubsa, elə də davam edir. Amma bununla bağlı konkret qərar olacaq, olmayacaq, bir söz deyə bilmərəm.

**- İstiqlalçı deputatların bir qrupu, o cümlədən keçmiş siyasi məhbuslar Arif Hacılı və digər siyasi məhbusların azadlığa buraxılması xahişi ilə prezidentə, hakimiyyət orqanlarına müraciət ediblər. Bu müraciətə baxılıbmı?**

- Müraciət olunubsa, mütləq baxılacaq.

**- Azərbaycan ziyalılarının bir qrupu da köklü islahatlara gedilməsi ilə bağlı davamlı müraciətlər edirlər və ötən həftə İctimai Palata rəhbərliyi ilə Ziyalılar Forumu arasında keçirilən görüşdə ölkədəki vəziyyətlə bağlı müzakirələrə hazır olduqlarını deyirlər. Bəlkə bu narazı ziyalılarla bir görüş keçiriləydi və onların fikirləri dinləniləydi...**

- Mən imkan olan kimi Azərbaycanın ictimaiyyət nümayəndələri, o cümlədən Azərbaycanda bəlli kəsim insanları ətrafında aparan QHT təmsilçiləri ilə, ziyalılarla görüş keçirəcəyəm. Biz belə görüşdən heç vaxt imtina etməmişik. Sadəcə olaraq, indi bizim bu işlərlə bağlı başımız həddən artıq qarışıqdır. Belə görüş də keçirəcəyik, onların bütün fikirlərini də müvafiq olaraq müzakirə edəcəyik. Yəqin ki, biz bunu Azərbaycanın Respublika Günü ərəfəsində eləyəcəyik.

**- Ötən müsahibənizdə müxalifətlə görüşə hazır olduğunuzu demişdiniz, xeyli müzakirə olundu. Amma...**

- Mən müxalifətlə də görüşəcəyəm. Görüşməmək üçün də heç bir əsas görmürəm. Sadəcə, bu dəqiqə işlərin çox mürəkkəb vaxtıdır. Azərbaycan dövlətinin bütün vətəndaş cəmiyyətləri, siyasi partiyalarla, o cümlədən mətbuat orqanları ilə əlaqələri mövcuddur, davam edir və bundan sonra da davam edəcək. Biz onların heç birinə düşmən kimi baxmırıq. Lakin onların fəaliyyəti bu gün bizə, eyni zamanda Azərbaycan dövlətinə, millətinə xidmət nümunəsi də yaratmır.

**- Müxalifətlə görüşü nə vaxta planlaşdırırsınız?**

- Sağlıq olsun, baxarıq. "Evrovision"u keçirək, yəqin ki, iyun ayında mən onlarla da bir görüş keçirəcəyəm.

**- İctimai Palatanın da daxil olduğu görüş?**

- O cümlədən onlarla.

**- Müxalifət deyir ki, bir ildən çoxdur əqidə yoldaşlarımız qanunsuz olaraq həbsdə saxlanılır, bizə aksiya da keçirmək imkanı yaradılmır. Arqument budur ki, əgər hakimiyyət aksiyaların olmasını istəmirsə, həbsdəkiləri sərbəst buraxsın.**

- Onlar aksiyaları keçirsinlər. Amma bu aksiyaları təxribat törətmək, xaricilərin diqqətini çəkmək məqsədi ilə keçirməsinlər. Burada söhbət ondan gedir ki, heç kim xalqın iradəsini hansısa aksiyadan istifadə edərək zorlamağa qalxmasın.

"Eurovision", başqa bu kimi vasitələr müxalifətin indiyə qədər çəkmək istədiyi haqq-hesabı çəkmək üçün ən yaxşı vasitə deyil. Müxalifət də qoy özünü göstərsin ki, biz belə gözəl müxalifətik, fəalıq, bizi də burda istəyənlər var. Qoy onları da tanısınlar, biz onun əleyhinə deyilik. Amma özlərini tanıtmaq üçün Azərbaycan dövlətini, millətini, onun maraqlarını aşağılamasınlar.

**- Amma əgər anası ağır xəstə olan istiqlalçı deputat Arif Hacılı bu gün həbsdədirsə...**

- İnanın, bəlkə də mən hamıdan çox təəssüflənirəm ki, həbsdədir. Amma neyləmək olar ki, Arif Hacılı Azərbaycan qanunlarını pozub, bilə-bilə ölkədə iğtişaş yaradılması prosesində iştirak edib və ona görə də bu gün həbsdədir.

**- Onsuz da altı aya-bir ilə bu insanlar azadlıqda olacaq. Daha yaxşı olmazmı ki, elə indiki dövrdə, Avropanın diqqətinin ölkəmizə yönəldiyi bu məqamda, milli maraqlar naminə onlar azadlığa buraxılsın?**

- Siyasi, humanitar nöqteyi-nəzərdən siz dediyinizlə mən razıyam. Amma hüquq-mühafizə sisteminin , hüquq normalarının öz qayda-qanunu və öz yanaşması var.

**- "Eurovision"dan sonra hakimiyyətin öz daxilində müəyyən şəxslərə, yaxud müxalifətə, azad mətbuata qarşı repressiyalar başladacağı xəbərləri barədə nə deyə bilərsiniz?**

- Biz onların "Eurovision"dan istifadə edib reallaşdırmaq istədiyi tələbləri həyata keçirmədiyimiz kimi, "Eurovision"dan sonra da heç kimlə haqq-hesab çəkməyə qalxmayacağıq.

# Baku Crystal Hall-un sirləri



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Baku Crystal Hall"un açılışında. 7 may 2012-ci il.

### "BAKU CRYSTAL HALL"U PREZİDENTİN AİLƏSİNƏ YAXIN ŞİRKƏT TİKİR?

Bir neçə gündən sonra qırxdan çox Avropa ölkəsinin ictimai kanalı Xəzər dənizinin sahilində yenicə inşa olunmuş – "Baku Crystal Hall"dan qitənin ən böyük mahnı yarışmasını canlı yayacaq. "Eurovision-2012" mahnı yarışmasının keçiriləcəyi "Crystal Hall"un tikintisinə Azərbaycan prezidenti ölkənin keçənilki qalibiyyətindən bir neçə gün sonra - iyulun 8-də sərəncam verib.

Ötən bir ilə yaxın vaxt ərzində həm prezident, həm də onun "Eurovision-2012" müsabiqəsinin təşkilat komitəsinə rəhbərlik edən xanımı Mehriban Əliyeva dəfələrlə tikinti sahəsində olub, işlərin gedişi ilə maraqlanıb. Amma OCCRP və AzadlıqRadiosunun əldə etdiyi sənədlərə görə, prezidentin və birinci ledinin "Crystal Hall"un inşasına aidiyyətləri təkcə sadalananlarla bitmir...

### ALMAN ŞİRKƏTİ AZENCO-NU SUBPODRATÇI SEÇİB

"Crystal Hall"un inşaatının Almaniyanın "Alpine Bau Deutchland AG" şirkəti tərəfindən aparıldığı elan edilib.




Baku Crystal Hall-da işləyən Azenco-nun maşınlarından biri

Amma tikinti meydançasında üzərində AZENCO yazılan texnika gözə dəyir. Azərbaycan büdcəsinə ən azı 105 milyon manata başa gələn bu tikilinin inşasında Azenco şirkətinin subpodratçı olduğunu şirkətin Bakıdakı nümayəndəsi Rolf Herr təsdiqləyib. Amma cənab Herr detallara varmaqdan imtina edib. Alpine Bau-nun baş ofisinə - mətbuat xidmətinə yazdığımız məktubu aldıqlarını təsdiqləsələr də, cavab verməkdən imtina ediblər.

Şirkət niyə məhz bu podratçını seçdikləri və Azenco-nun kimə məxsus olduğu ilə bağlı sualları cavabsız saxlayıb.

### AZENCO-NUN PREZİDENT AİLƏSİNƏ YAXINLIĞI BARƏDƏ SƏNƏDLƏR

Azenco-nun rəsmi məlumatlarında göstərilir ki, onun payının 97,5 faizinin sahibi İnterenerji şirkətidir. İnterenerjinin əsas – 70 faizlik payının sahibi isə Ador MMC-dir. Ador MMC Bakıda Səməd Vurğun küçəçi 7 ünvanında qeydiyyatdan keçib. Bir müddət öncəyə qədər həmin ünvanda 3 seçici qeydə alınmışdı – Mehriban Arif qızı Əliyeva, Leyla İlham qızı Əliyeva, Arzu İlham qızı Əliyeva.

ADOR MMC həm də Express bankın təsisçisidir. Bankın illik hesabatlarında da bu şirkətin ünvanı Səməd Vurğun küçəsi 7 olaraq göstərilir. Azadlıq Radiosunun 2010-cu ildə apardığı araşdırma S.Vurğun küçəsi 7 ünvanın sakinlərindən birinin – Arzu Əliyevanın dövlətə məxsus Azalbankı qeyri-qanununi özəlləşdirdiyini üzə çıxarmışdı. Azərbaycan prezidentinin sözçüsü Azər Qasımov həmin ünvanda qeydiyyatdan keçmiş və Silkwaybank-ın səhmlərinin sahibi Arzu Əliyevanın Azərbaycan prezidenti İlham Əliyevin övladı olduğunu təsdiqləmişdi. Contact.az saytında dərc olunmuş başqa bir araşdırma isə ölkədə bir neçə bankın eyni ünvanla bağlılığını üzə çıxarmışdı.

Əliyevlərin Azenco-dakı marağı və büdcədən maliyyələşən böyük layihələrdə bu şirkətin iştirakı ilə əlaqədar maraq konflikti barədə suallarımızı prezidentin sözçüsünə ünvanlasaq da, cavab ala bilməmişik.

### "CRYSTAL HALL"U "EUROVISION-2012"YƏ GÖRƏ TİKMƏYİBLƏR?

"Eurovision-2012" tədbirinin koordinatoru Sietse Bakker isə sorğumuza cavab olaraq bildirib ki, "Crystal Hall"un "Eurovision"a aidiyyəti yoxdur. Onun iddiasına görə, hökumətin bu zalı, müsabiqə Bakıda keçirilməsə də, tikmək planı var idi. Yeni idman-konsert kom-



Crystal Hall-un tikintisindən kadr

pleksinin inşası barədə sərəncamın tarixinin məhz "Eurovision" qələbəsindən sonraya təsadüf etməsi Sietse Bakker üçün tutarlı arqument deyil: "Bu cür işlərin planlaşdırılması üçün adətən daha uzun müddət tələb olunur. Digər tərəfdən, bu layihəni Almaniya və Avstriyanın Alpine Bau və Nüssli şirkətləri həyata keçirir. Yerdəki subpodratçıları da onlar seçirlər.

Onu da nəzərə alın ki, "Baku Crystal Hall" həm də 2020 Olimpiya oyunlarının Azərbaycanda keçirilməsi üçün təklif paketinin tərkib hissəsidir".

Birinci ledinin rəsmi səhifəsinə ünvanlanan sorğumuz da cavabsız qalır.

**(davamı səhifə 10-da)**

# Baku Crystal Hall-un sirləri

(əvvəli səhifə 9-da)

### "CRYSTAL HALL" AZENCO-NUN YEGANƏ LAYİHƏSİ DEYİL

Hərçənd ki, "Crystal Hall" Azenconun maraq konflikti ilə bağlı şübhə doğuran yeganə layihəsi deyil. Bu şirkət həm də Crystal Holl-un yaxınlığında Azərbaycanın son illərdə ən çox müzakirə olunan daha bir layihəsində –Dövlət Bayrağı Meydanının tikintisində çalışıb. Bayraq Meydanı dünyanın ən uca bayraq dirəyi ilə Ginnesin Rekordlar kitabında yalnız bir neçə ay qala bildi. Mərkəzi Asiyanın ən kasıb ölkəsi Tacikistan daha uca bayraq dirəyi inşa edənə qədər. Bu bir neçə aylıq birincilik isə Azərbaycan büdcəsinə azı 30 milyon manata başa gəlib.

Bu məbləğin 20 milyon manatı prezidentin 532 (26 oktyabr 2009) və 1052 (3 avqust 2010) saylı sərəncamları ilə dövlət başçısının Ehtiyat Fondundan, 10 milyon manatı isə birbaşa 2011-ci il dövlət büdcəsindən Nazirlər Kabinetinin 260 S (25 avqust 2011) saylı sərəncamı ilə ayrılıb.

Nazirlər Kabinetinin sözçüsü Akif Əli ayrılan məbləğin hansı hissəsinin dirəyin layihəsini vermiş Trident Support şirkətinə, hansı hissəsinin Azencoya çatdığı, niyə məhz Azenconun partnyor olaraq seçildiyi barədə sualları cavablandırmaqdan imtina etdi. Dəfələrlə etdiyimiz telefon zənglərinə özü cavab verməyib, köməkçisi isə sualımızı və telefon nömrəmizi qeydə alsa da, heç bir cavab almamışıq.

Azenco-nun dövlət xərclərində iştirakı bununla bitmir. Ölkənin müxtəlif yerlərində üzərində Azenco simvolu olan avadanlıqları iş başında görmək olar. Dövlət Satınalmalar Agentliyinin qeydlərinə əsasən, təkcə 2011-ci ildə bu şirkət dövlət büdcəsindən təqribən 62 milyon manatlıq müxtəlif sifarişlər (cədvələ bax) alıb. Qeyd edək ki, Satınalmalar üzrə Dövlət Agentliyinin qeydiyyat bazası heç də bütün dövlət sifarişlərini əhatə etmir.

***CƏDVƏL. Satınalmalar üzrə Dövlət Agentliyinin rəsmi məlumatına əsasən, Azenco-nun aldığı dövlət sifarişlərinin bəziləri***

| Sıra nömrəsi | Sifarişçi | Sifariş | Podratçı şirkət | Kontraktın həcmi |
|---|---|---|---|---|
| 13819 | "Azərenerji" ASC-nin "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC | Mühəndis-geoloji və hidrogeoloji qazma işlərini yerinə yetirmək üçün qazma maşınlarının satın alınması | "Azenco" | 2935000 |
| 10515 | "Azərenerji" ASC-nin "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC | Geoloji cihazların satın alınması | "Azenco" | 34077.11 |
| 1539 | "Azərenerji" ASC | Cari təmir işlərinin satın alınması | "Azenco" | 49000.12 |
| 1383 | "Azərenerji" ASC | Asiya İnkişaf Bankının dövlət zəmanətli krediti hesabına "220 kV Zabrat yarımstansiyasının və Hövsan-Şimal ES-Zabrat-Sənaye Qovşağı elektrik verilişi xətlərinin (220 kV Şimal xətləri-nin) tikintisi" layihəsi üzrə işlərin satın alınması | "Azenco" | 58950728.64 |
| | | | | 61968805.87 |

### AZENCO-NUN TARİXÇƏSİ

Ekspertlər Azenco-nun energetika ilə bağlı tikinti sifarişlərini udmasına təəccüblənmirlər. Azenco vaxtilə Azərenerji ASC-nin tikinti qanadı olan Azərenerjitikinti ASC-nin bazasında yaradılıb və bu sahədə böyük təcrübəyə malikdir.

Amma "Turan" informasiya agentliyinin eksperti Hafiz Babalı böyük potensialı olan tikinti nəhənginin özəl əllərə verilməsində sual doğuran məqamları xatırladır. Onun sözlərinə görə, Azərenerjitikintinin 97,5 faizinin bir şirkətin - İnterenerjinin əlinə keçməsi özəlləşdirmənin açıq hərracda deyil, o qədər də şəffaf olmayan investisiya müsabiqəsi yolu ilə həyata keçirilməsi sayəsində mümkün olub: "İnvestisiya müsabiqəsində rəqiblərin kim olduğu, hansı təkliflərin verildiyi belə açıqlanmadı".

İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin direktoru Azər Mehtiyev deyir ki, Azenco ölkədə böyük neft pullarının mənimsənilməsi üçün istifadə olunan sxemin bariz nümunəsidir: "Böyük neft pullarının gəlişi, dövlət mülkiyyətinin bölünməsi və iqtisadiyyat sahələrinin inhisara alınmasının paralel getməsi sayəsində neft pullarının mənimsənilməsinə şərait yaradan bir sistem qurulub. Neft pulları ilə maliyyələşən böyük infrastruktur layihələri əsasən yüksək vəzifəli məmurlara aid şirkətlər arasında bölüşdürülür və mənimsənilir.


Gələcək "Baku Crystal Hall"

Vergi strukturlarının şirkətlərin sahibləri ilə bağlı məlumatları gizli saxlaması, bir çox hallarda isə dövlət sifarişlərinin ofşor zonalarda yaradılan, sahibi bilinməyən şirkətlərə verilməsi ictimaiyyətin prosesə nəzarətini qeyri-mümkün edir".

A.Mehtiyevin sözlərinə görə, prezidentin ailəsinin biznes maraqları ilə bağlı məlumatları əldə etmək xüsusilə çətindir.

### PREZİDENT ÖZ GƏLİRLƏRİNİ BƏYAN EDİBMİ?

Azərbaycanda 2004-cü ildə qəbul edilən "Korrupsiyaya qarşı mübarizə haqqında" qanuna görə, vəzifəli şəxslər özlərinin və ailə üzvlərinin gəlirlərini və gəlir mənbələrini bəyan etməyə borcludurlar. 2005-ci il avqustun 9-da (278 saylı fərman) prezident fərman verərək Nazirlər Kabinetinə tapşırıb ki, iki ay müddətində bəyannamə formasını hazırlasın. Amma indiyə qədər nə forma hazırlanıb, prezident də daxil olmaqla, nə də hansısa məmur gəlirlərini bəyan edib.

Seçkilərdən əvvəl bütün namizədlər üçün məcburi olan gəlir bəyannaməsini prezident və onun deputat olan xanımının təqdim edib-etmədiyi bəlli deyil. Mərkəzi Seçki Komissiyası bu barədə sorğulara cavab vermir. Azərbaycan prezidenti 2011-ci ilin əvvəlində ölkədə korrupsiyaya qarşı mübarizədə sərt addımların atılacağını bəyan edib. Onun özünün və ailə üzvlərinin qeyri-şəffaf özəlləşdirmə və investisiya layihələrindən yararlanması ilə bağlı suallar isə hələ də cavabsız qalır.

***Xədicə İsmayılova***

# «Qaynar Xətt»dən hüquqşünas məsləhəti al

**AzadlıqRadiosunun** efirində hər **şənbə saat 18-də «Qaynar Xətt»** verilişi başlayır. Burada sizin suallara hüquqşünaslar cavab verir. **12 may 2012-ci il** verilişində səslənən sualların bəzilərini və onların cavablarını sizə təqdim edirik. Sualları hüquqşünaslar **Müzəffər Baxışov və Azər Nağıyev** cavablandırıb.




**ARAYIŞ VERMİRLƏR**

Bakıdan Rüfət: *Mənim 21 iyun 2012-ci il tarixdə 18 yaşım tamam olur. Kolleci bu il bitirirəm. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 14 iyun 2012-ci il tarixində bakalavr səviyyəsində imtahanlarda iştirak etmək üçün müvafiq həqiqi hərbi xidmətdən möhlət haqqında arayış tələb edirlər. Müraciət etmişəm səfərbərlik və hərbi çağırış dövlət xidmətinə. Arayış vermirlər ki, mənə bu arayış düşmür. Bu arayışı almaq hüququm varmı?*

Cavab: Bu abituriyentə imtahanlarda iştirak imkanı yaradılmalıdır. Çünki hərbi xidmətə çağırış iyul ayının 1-dən başlayır. Həm də bərabərlik hüququ deyilən bir şey var. Onunla bərabər təhsil almış şagirdlər ali məktəbə sənəd verib öz təhsil hüquqlarını reallaşdıra bilirlərsə, bu şəxsin də təhsil hüququ təmin olunmalıdır.

**" ...HARA GEDİRSİNİZ GEDİN!"**

Astaradan Zeynəb: *15 ildən artıqdır ki, rayonumuzda tara bazasının binasında yaşayırıq. Amma dövlət işçiləri bizə deyirlər çıxın buradan, dövlətindir satırıq. Deyirlər hara gedirsiniz gedin. İstər Ermənistana gedin. Biz nə etməliyik?*

Cavab: Araşdırmaq lazımdır ki, 15 il əvvəl Zeynəb xanımgil hansı əsasla yaşamaq hüququ orada əldə ediblər. Ola bilsin ki, məcburi köçkün kimi köçürüblər, yaxud hansısa başqa qaydada köçürüblər, birinci bunu araşdırmaq lazımdır. Bundan başqa, həmin bina hazırda hansı dövlət orqanının balansındadır? Bu məsələlər araşdırıldıqdan sonra bir şey demək olar. Məcburi köçkünlərlə bağlı məsələdirsə, burda dövlət proqramı var, onlar başqa yaşayış yeri ilə təmin olunmadan çıxarıla bilməzlər. İşin halları dəqiq olsaydı, daha dəqiq də cavab vermək olardı. Ancaq hər bir halda əgər onlar bundan narazıdırlarsa, dövlət orqanlarının hərəkətlərindən məhkəməyə müraciət edə bilərlər.

**KOMPYUTER PULU ÖDƏMƏLİYƏMMİ?**

Lənkərandan Elmar: *Mən sürücülük vəsiqəsi almaq üçün imtahana getmək istəyirəm. Mənə deyirlər ki, kompyuter pulu ödə. Bu, düzgündürmü?*

Cavab: Bu, kompyuter pulu deyil. "Dövlət rüsumu haqqında" qanunun tələblərinə görə, sürücülük vəsiqəsinin verilməsi üçün imtahanların qəbuluna görə, əgər o şəxs avto, moto nəqliyyat vasitələrinin, tramvay və trolleybusların idarə olunması üçün sürücülük vəsiqəsi almaq istəyirsə 20 manat, digər, məsələn, traktor və başqa vasitələr idarə etmək üçün maşinist kimi sürücülük vəsiqəsi almaq istəyirsə 5 manat rüsum ödəməlidir. Bundan əlavə, sürücülük vəsiqəsinin verilməsi üçün də 15 manat dövlət rüsumu ödəməlidir.



**NÖVBƏTÇİ MÜƏLLİMİN SUALI...**

Anonim: *Orta məktəb müəlliminin məktəbdə həftəlik qrafik üzrə növbətçi olması qanunidirmi? Əgər müəllim növbətçilikdən imtina edərsə, o hər hansı məsuliyyət daşıyırmı?*

Cavab: Təhsil müəssisəsi xüsusi bir müəssisədir. Onların hər birinin öz daxili nizam qaydaları olur. Daxili nizam qaydasında belə bir qayda müəyyən edilərsə və əmək müqaviləsində bunlar göstərilibsə, bu, qanunidir. Əgər göstərilməyibsə, onun əmək funksiyasına daxil deyilsə, qanunsuzdur və bundan imtina etmək heç bir məsuliyyətə səbəb ola bilməz.

**POLİS KİRAYƏ İŞİNƏ QARIŞA BİLƏRMİ?**

Anonim: *Mən kirayə ev verirəm və kirayədə 3 nəfər qalır. Bunun üçün mən dövlətə vergi ödəməliyəmmi? Əgər ödəməliyəmsə, bu neçə manat olmalıdır? Polis məni tez-tez narahat edir.*

Cavab: Bununla bağlı vətəndaş müraciət etməlidir vergi orqanına və qeydiyyata alınıb VÖEN almalıdır. Bundan sonra mənzilin kirayəsi ilə bağlı müqavilə bağlamalıdır. Kirayə verdiyi evdən əldə etdiyi gəlirdən hər ay 14 faiz vergi ödəməlidir. Polisin isə belə məsələlərə müdaxilə etmək səlahiyyəti yoxdur. Bu, vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi deməkdir.

**ƏRİMDƏN BOŞANIRAMSA...**

Anonim: *Mən ərimdən boşanmaq üçün məhkəməyə ərizə vermişəm. İki həftədən 5 günlük Moskvaya gedirəm. Uşağı özümlə aparmaqda problem yarana bilər?*

Cavab: "Pasport haqqında" qanuna görə, yetkinlik yaşına çatmayanların ölkədən çıxarılmalarına görə hər iki valideynin notarial qaydada razılığı olmalıdır. Əgər ana tək gedirsə, mütləq atanın razılığı olmalıdır. Ata tək gedirsə, həmçinin ananın. Əgər belə bir razılıq yoxdursa, həmin ana məhkəməyə müraciət etməlidir, məhkəmədən icazə almalıdır ki, atanın razılığı olmadan uşağın ölkədən çıxarılmasına icazə verilsin.

***Hazırladı: Şəhla Sultanova***

Hər həftənin **şənbə günü saat 18:05-dən 19-00-a qədə**r **"Qaynar Xətt**"ə zəng edin və hüquqşünaslardan cavab alın.
**Telefon:** (012) 436 77 41,
**email:** efir@azadliqradiosu.az ,
**SMS üçün mobil nömrə:**
(+99450) 7441017

# Cümhuriyyət banilərinə yalnız qəbiristanlıqda yer tapıldı


«Səbiskar» qəbiristanlığı

*Gəncənin köhnə «Səbiskar» qəbiristanlığında Azərbaycan Demokratik Respublikasının qurucularının və onların ailə üzvlərinin qəbirlərinin olduğu bildirilən sərdabə var. Ona görə bildirilən deyirik ki, bəzi tarixçilər qəbirlərin həqiqiliyinə şübhə edirlər. Həmin sərdabə kompleksinin yanında bir sahibkar, həm «Difai» Partiyasının üzvlərinin, həm respublika qurucularının, həm də görkəmli ziyalıların heykəllərini qoydurub. Burada Məhəmməd Əmin Rəsulzadənin, Şah İsmayıl Xətainin, Nəsib bəy Yusifbəylinin, Ələkbər bəy Rəfibəylinin və Cavad xanın heykəlləri var. Adları çəkilən şəxsiyyətlərə qəbiristanlıqda abidə qoyulmasına tarixçi və ziyalıların münasibəti birmənalı deyil. Həmin heykəllərdən biri də Azərbaycan Demokratik Respublikasının banilərindən Əhməd bəy Ağayevə məxsusdur. Məxfilik ideyası ilə fəaliyyət göstərmiş «Difai» Partiyası haqda nəsildən-nəslə keçən məlumatlar əldə edən Samir Pişnamazzadə bildiklərini AzadlıqRadiosunun dinləyiciləri ilə də bölüşür:*

**«DİFAİ PARTİYASINI ƏHMƏD BƏY AĞAYEV YARADIB»**

«Difai» islami bir anlayışdır. Difa müdafiədir, cihad isə hücumdur. Əhməd bəy Ağayev də «Difai» Partiyasına rəhbərlik edib. Partiyaya Ələkbər bəy Rəfibəyli və Məhəmməd Ağa Pişnamazzadə rəhbərlik edib. «Difai»nin müharibəsi maarifçiliklə bağlı olub. Təkcə Gəncədə 4 məktəb açdırıb. Məsələn, Əhməd Cavadla Qarsda, Ərdoğanda bolşeviklərin və erməni yaraqlılarının hücumuna məruz qalan yetim uşaqları gətirib oxudublar. 1-ci Dünya müharibəsində Türkiyəyə maddi yardım göstəriblər».

**«ONLARI DA QƏBİRİSTANLIQ ANLAYIŞINDA QƏBUL EDƏCƏKLƏR»**

Samir Pişnamazzadə deyir ki, bu heykəllərin qəbiristanlıqda olmasının heç də təbliğat baxımından əhəmiyyəti yoxdur: «Bizdən ötrü qəbiristanlıq heç də avropalılar kimi deyil ki, insanlar oranı ziyarətgah saya, ora gedib dincələ. Qəbiristanlıq anlayışı bizim xalqımızın şüurunda başqadır. Onları da qəbiristanlıq anlayışında qəbul edəcəklər. Ancaq biz köhnə qəbiristanlığı muzey kimi qəbul eyləyib saxlasaq, bu, əlbəttə ki, təbliğat vasitəsidir».

Bununla belə Samir Pişnamazzadə deyir ki, «Difai» Partiyasının sədri olmuş Əhməd bəy Ağayevin qəbiristanlıqdan başqa heç bir yerdə barelyef və ya heykəli yoxdur.

Tarixçi etnoqraf Səyyaf Paşayev isə deyir ki, nə qəbirlərin yeri, nə də düzülüşü düzgündür. Tarixçi bunu həm də tarixə zidd bir təbliğat vasitəsi kimi dəyərləndirir:

**ŞAH İSMAYILLA CAVAD XAN BİR YERDƏ...**

«Qəbirləri bir az qarışdırıblar. Mirzə Məhəmməd Axundzadəyə başdaşı qoymayıblar. Mirzə Məhəmməd Axundzadə


«Səbiskar» qəbiristanlığı

«Difai» Partiyasının möhürünü saxlayan bir şəxs olub. Səttarxan inqilabında iştirak edibdir. Yarı sərdabə, yarı qəbirdir, qarışıqdır. Onları dəqiqləşdirmək lazımdır ki, kim kimdir. Dar yerdə 4-5 adamın cəsədi var. Hansı kimindir, dəqiq deyil. Şah İsmayılla Cavad xanın heykəlini yanaşı qoyublar. Şah İsmayıl böyük Səfəvi şahı olub. Cavad xan da Gəncənin başçısı. Qəbiristanlıqda onu qoymaq lazım deyildi. Ora o qədər xərc çəkiblər. Şəhərdə bir kiçik yer alıb orda düzəltməli idi».

Gəncə şəhərinin baş memarı Əli Rüstəmli isə deyir ki, həmin qəbiristanlıqda belə bir abidələrin olmasından xəbərsizdir: «İnformasiyam yoxdur. 1 ilə yaxındır işləyirəm. Oradan keçmişəm, görməmişəm. Orada təmir işləri görmüşük, ancaq mən o qəbirləri, heykəlləri görməmişəm».

Ancaq baş memar deyir ki, Atatürk prospektində Məhəmməd Əmin Rəsulzadənin bərbad halda olan barelyefi təmir etdirilib və onun barəsində məlumatlar yazılıb.

Gəncə Regional Elm Mərkəzindən verilən məlumata görə, tarixi şəxsiyyətlərin abidə və barelyeflərinin hazırlanması ilə bağlı layihə hazırlanıb. Layihəyə əsasən, Gəncənin görkəmli şəxsiyyətlərinin evlərinin qarşısında barelyeflər qurulacaq. Bu baxımdan 40-a yaxın şəxsiyyətin barelyefinin qurulması nəzərdə tutulur.

Gəncə Azərbaycan Demokratik Respublikasının bir dönəm paytaxtı olub. Gəncəlilər düşünür ki, demokratik respublikanın baniləri bu şəhərdə layiqincə anılmalıdırlar.

Bir müddət öncə «Yeni Müsavat» qəzeti «Səbiskar» qəbiristanlığı haqda yazarkən qeyd etmişdi ki, əslən Gəncədən olan, hazırda isə başqa şəhərdə yaşayan Hacı Adil kimi tanınan iş adamı ötən il Gəncə Şəhər İcra Hakimiyyətinə müraciət edərək, mərkəzi parkların və ya meydanların birində şəxsi vəsaiti hesabına Azərbaycan Xalq Cümhuriyyətinin banilərinin, Şah İsmayıl Xətai və digər bir neçə tarixi şəxsiyyətin heykəlini ucaltmaq istədiyini bildirib. Yer ayrılmasını xahiş edib. Lakin ona park və meydanlarda abidə ucaldılmasının dövlətin işi olduğunu əsas göstərərək yer ayırmaqdan imtina ediblər. Bundan sonra iş adamı Gəncədəki «Səbiskar» adlanan qəbiristanlıqda bir neçə qəbir üçün yer alıb.

***Gülnur Raqifqızı***

# Evlənmə verilişləri niyə ləğv edilir?


«Toy olsun» verilişi

*Sentyabrdan Azərbaycan televiziya məkanındakı izdivac, yəni evlənmə verilişləri dayandırılacaq. Milli Televiziya və Radio Şurası ilə telekanal rəhbərləri artıq bu yöndə razılığa gəliblər. Məlumatı Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli «APA» İnformasiya Agentliyinə verib.*

**«BUNUN NƏYİ MENTALİTETƏ UYĞUN DEYİL? SAVABDIR»**

Buna tamaşaçılardan təəssüflənən də var, sevinən də. Bakı sakini Elmira Abbasova deyir ki, bu cür verilişlərdə kimsəsizlər, əlillər evləndirilir. Bunun özü böyük savabdır. Başqa bir paytaxt sakini Camal Qasımlı isə tərəddüd etmədən belə verilişlərin bağlanmasını istəyir: «Bu kimi bayağı, əttökən proqramlar bağlansa yaxşıdır. Xüsusən aparıcıların peşəkarlığı aşağı səviyyədədir. Elə bil, küçədə qeybət qırırlar. Heç olmasa, Türkiyə, Rusiya televiziyalarından nəsə öyrənsinlər».

**«HƏTTA O İNSANLARI VERİLİŞLƏRƏ ATALARI, ANALARI GƏTİRİR»**


Nuşirəvan Məhərrəmli

MTRŞ sədri Nuşirəvan Məhərrəmli isə ANS və ATV-də yayınlanan həmin verilişləri cəmiyyət üçün yararlı saymır. Onun dediyinə görə, bu, əksəriyyətin fikridir: «Azərbaycan xalqı ailə məsələsinə həddən artıq ciddi yanaşır. Amma indi bu məsələni elə adiləşdiriblər ki, hətta o insanları verilişlərə ataları, anaları gətirir. Bu, bizim üçün qəbul edilən deyil. Bu cür ailələr ancaq əyləncə xarakteri daşıyır, uzunmüddətli ola bilməz. 18-19 yaşlı uşaqlar bura çıxırsa, bu, heç qəbuledilməzdir. Ailə qurmaq normal şeydir, amma bunun üçün televiziyanın imkanlarından istifadə etmək lazım deyil».

Nuşirəvan Məhərrəmli deyir ki, həm ANS, həm də ATV kanalının rəhbərliyi ona əhalinin narahatlığını başa düşdüklərini və bunu nəzərə alacaqlarını söyləyiblər.

**«MƏN APARICI OLARAQ ÜZÜLƏRƏM, ANCAQ QƏRARLA BAĞLI İSRAR ETMƏRƏM»**

ANS-də yayınlanan «Toy olsun» verilişinin aparıcısı Elgiz Əkbər belə deyir. Bəs Milli Televiziya və Radio Şurasının televiziya kanallarının proqram siyasətinə qarışmaq hüququ varmı? Elgiz Əkbər deyir ki, yox! «Təbii ki, yoxdur. Amma onlar məsləhət, tövsiyə xarakterli fikirlər deyirlər. Mən Nuşirəvan müəllimin dediyinə də demirəm üsyan edirəm, etiraz edirəm. Yox, yox, yox!».

«Tənzimləyici dövlət qurumunun - Milli Televiziya və Radio Şurasının televiziya verilişlərinin məzmununa müdaxilə etməsi yolverilməzdir. Bu, prinsipləri və hədləri keçməkdir. Qanunla qurumun belə səlahiyyəti yoxdur». Bunu isə Media Hüquqları İnstitutunun rəhbəri Rəşid Hacılı deyir. Yalnız qanunla qadağa olmuş hallarda, məsələn, uşaq pornoqrafiyası, ictimai asayişi pozmağa yönələn çağırışlar olduğu hallarda Şura işə qarışa bilər. Rəşid Hacılının fikrincə, Şuranın izdivac verilişlərinə qarışması düz deyil.

ZEYNAL MƏMMƏDLİ:
**«TELEVİZİYALAR RİSKDƏN QORXURLAR»**

BDU-nun jurnalistika fakültəsinin müəllimi Zeynal Məmmədliyə görə, yerli teleməkanda baş verənlər ölkədəki ümumi ab-hava ilə səsləşir: «Görünür, siyasi, inzibati, iqtisadi məhdudiyyətlər peşəkarlığı da hədəfə alır». Zeynal Məmmədlinin qənaətincə, televiziyalar riskdən qorxurlar və onlara nə deyirlərsə, razılaşmaqla kifayətlənirlər.


Zeynal Məmmədli

Ötən ilin sonunda Şura xarici serialların da milli efir məkanında yayınını qadağan edib.

***Şahnaz Bəylərqızı***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


ANAR: **"Sədrlikdən getmək fikrim yoxdur"**


Niyazi Mehdi: **"Şah İsmayılı vəhşi kimi təqdim etməyin!" (POLEMİKA)**


**Böyük yazıçı və ziyalı Karlos Fuentes vəfat etdi**


**Qazaxlar haqda gülünc obrazı dəyişməyə iddialı film gəlir**


**«Qız Qalası» III Beynəlxalq İncəsənət Festivalı başladı**

# Sığorta rüşvətlə satıla bilərmi?


Mahir Abdullayev

*Azərbaycanda icbari sığorta şirkətlərini niyə yalnız yüksək vəzifəli məmurlara yaxınlığı ilə tanınan sığorta şirkətləri aparırlar? Məsələn, təyyarə sərnişinlərini yalnız "İpək Yolu" sığorta şirkəti, ictimai nəqliyyatda sərnişinləri "Qaranat" sığorta həyata keçirir. Mayın 17-də "Korrupsiometr" proqramında Maliyyə Nazirliyi Dövlət Sığorta Nəzarəti Xidmətinin şöbə müdiri Mahir Abdullayev bildirdi ki, ölkədə 10-dan çox sığorta şirkəti var. Başqa şirkətlər həmin icbari sığorta sahəsində fəaliyyət göstərmək üçün müraciət etməyiblər. Mahir Abdullayev hər hansı sığorta şirkətinin sığortalılara lazım olanda ödənişi etmədiyinə inanmır.*

Dinləyicilərin "Avtomobillərin icbari sığortası nəyə lazımdır, onsuz da hansısa qəza zamanı heç bir sığorta pulu almaq mümkün olmur" sualına Mahir Abdullayevin cavabı belə oldu:

- Məncə, burada bir yanlış anlama var. Bu növ icbari sığorta qəza edənin sığortası deyil. Yəni hansısa qəza zamanı qəza törədən adamın ziyanının sığortasından söhbət getmir. Onun başqasına vurduğu ziyanın sığortasından söhbət gedir.

Belə qəza zamanı qəzanı törədən deyil, onun ziyan vurduğu adam sığorta haqqı ala bilər. Sürücü özünün ziyanını icbari sığortada deyil, başqa özəl sığorta şirkətlərində sığorta etdirə bilər.

Mahir Abdullayev bildirir ki, sığorta ödənişini ala bilməyən vətəndaşlar Maliyyə Nazirliyinə müraciət edə bilər.

Sığorta bazarının monitorinqini aparan ekspert Samir İsmayıl isə dedi ki, yalnız "İcbari sığorta haqqında" qanunun qüvvəyə minməsi kifayət deyil, insanların maarifləndirilməsi də lazımdır.

Çikaqoda yerləşən GünAz TV-nin əməkdaşı Cavad İsmayıl isə ABŞ-da sığorta sistemin necə işlədiyinə dair məlumat verdi.

**Verilişi AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz.**

***Xədicə İsmayılova, Gülər Qasımova***

# Azadlıq FM: «Eurovision»da favorit hansı mahnıdır?

*AzadlıqFM də növbəti buraxılışını "Eurovision"la bağlı müzakirələrə həsr etdi. Dünyanın aparıcı mərc kontorlarının ehtimal əmsalları əsasında seçdiyimiz "Eurovision-2012" mahnıları Facebookda və AzadliqRadiosu.az saytında səsverməyə çıxarılıb. Studiyaya dəvət etdiyimiz bəstəkarlar Vaqif Gərayzadə və Gövhər Həsənzadə bizim qeyri-formal münsiflər qismində bu ifaları müzakirə edərək, onlara qiymət veriblər.*

İsveç ifasının hansı məziyyətləri onu favoritlər sırasına çıxarır? Azərbaycanın dalbadal 2 dəfə qələbə qazanmaq şansı nə qədər böyükdür? İngilis dilində "yeyib-içmək" tələb edən "Buranovo nənələri"nin Rusiya kimi Avropanın da qəlbinə yol tapmaq ehtimalı varmı?

<u>Vaqif Gərayzadənin qiyməti:</u>

- İsveçin mahnısı ilk onluğa düşəcək Rusiyanın nənələri səhnəyə çıxanda müsbət emosiya doğuracaq, amma qalib gələcəyinə inanmıram. Böyük Britaniyanın təmsilçisi Humperdinck əfsanəvi bir müğənnidir, mahnı yer tura bilər.




<u>Gövhər Həsənzadənin qiyməti:</u>

- Mən də elə bilirəm ki, müsabiqədən sonra da İsveçin mahnısı dinləniləcək. Rusiya bu dəfə qalib olmaq iddiasında deyil. Böyük Britaniya müğənnisi bizə 80-ci illəri xatırladır, güman etmirəm ki, indiki gənclər bu ruhu tutub qiymət verə bilsinlər...

**Müzakirəni AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz.**

***Səadət Akifqızı***

# Baş mühəndis rüşvət tələbi ittihamı ilə tutuldu

Beyləqanda enerji şəbəkəsinin baş mühəndisi həbs edilib. Baş Prokurorluqdan ANS PRESS-ə verilən məlumata görə, rayonun Talıbxanlı kənd sakini icarəyə götürdüyü 0,5 hektar torpaq sahəsində inşa etdirdiyi tikiliyə enerji sayğacının quraşdırılması üçün texniki şərtin alınmasına görə baş mühəndis Vahid Feyziyevə müraciət edib. Prokurluğa daxil olan məlumata görə, baş mühəndis də sakindən buna 200 manat rüşvət tələb edib: "Həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində V.Feyziyev 2012-ci il mayın 8-də şəbəkənin inzibati binasındakı xidməti otağında vətəndaşdan 200 manat pulu rüşvət kimi alarkən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən cinayət başında yaxalanıb.

# Bələdiyyə sədri həbs olundu

**Azərbaycanda bələdiyyə sədri həbs edilib. Baş Prokurorluğun mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, Xaçmaz rayon Köhnə Xaçmaz kənd bələdiyyəsinin sədri Rəhman İsrafilov torpaq sahəsinin sənədləşdirilməsi üçün vətəndaşdan 1.700 ABŞ dolları məbləğində rüşvət tələb edib: "Bundan sonra o, həmin puldan 500 ABŞ dollarını almaqla, cinayət əməlini davam etdirərək 2012-ci il mayın 14-də tələb etdiyi məbləğin qalan 1.200 ABŞ dollarını xidməti otağında rüşvət kimi alarkən cinayət başında yaxalanıb".**

Prokurorluq Rəhman İsrafilova qarşı rüşvət alma maddəsi ilə (Cinayət Məcəlləsinin 311.1-ci maddəsi) cinayət işi açıb. Bu ittiham sübut olunsa, o, əmlakı müsadirə olunmaqla 4 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırıla bilər. Amma hələlik bu ittihamlar haqqında Rəhman İsrafilovun vəkili, ya da yaxınlarının fikirləri səslənməyib.

# Twitter-də məşhurları “öldürən” adam budur!


Tommaso De Benedetti

Onun “öldürdüyü” ilk məşhur adam– Roma papası 16-cı Benedikt olmuşdu. İtaliyalı məktəb müəllimi Tommaso De Benedetti bu yalan xəbəri yaymaq üçün Vatikanda ikinci şəxs olan kardinal Tarcisio Bertone-nin adına Twitter-də saxta profil yaratmışdı. Bundan sonra De Benedetti “qətllər”inə davam etdi. Twitter-də Kuba lideri Fidel Kastro və tanınmış ispan rejissoru Pedro Almodóvar-ın da ölüm xəbərlərini yaydı. Bu xəbərlər sosial şəbəkədə virus kimi yayıldı. Bu əməlin “dünyanın ən bacarıqlı və yaradıcı təfəkkürlü” saxta ölüm xəbəri yayan insanına - De Benedetti-yə aid olması sonradan bilindi.

**"SOSİAL MEDİANIN ZƏİFLİYİNİ GÖSTƏRMƏK CƏHDİ"**

“Ölüm xəbəri Twitter-də çox asan yayılır”, – deyə 43 yaşlı De Benedetti bu il martın 30-da Britaniyanın “Guardian” qəzetinə müsahibəsində bildirib. O deyir ki, bu hərəkətilə sosial medianın zəifliyini, onun xəbər mənbəyi kimi nə dərəcədə etibarsız olduğunu göstərmək istəyir. De Benedetti özünü “normal adam” kimi təqdim edir. Amma Twitter-də o, bu yaxınlarda hətta Əfqanıstan prezidenti Həmid Kərzay, ispan naziri və Suriya prezidenti Bəşər Əsədin “cildinə” də girib. “Sosial media dünyada ən qeyri-dəqiq xəbər mənbəyidir, amma xəbər mediası ona inanır, çünki sürətinə görə ona ehtiyacı var”, – deyə De Benedetti bildirir.

**KÖHNƏ YALANÇI**

De Benedetti köhnənin yalançısıdır. O, italyan mətbuatını da barmağına dolayıb, tanınmış yazarlar John Grisham, Arthur Miller, Gore Vidal, Toni Morrison, Derek Walcott və Philip Roth-la saxta müsahibələr yazaraq çap etdirib. Bu yalan 2010-cu ildə ortaya çıxıb, bir jurnalist Roth-a onun Amerika prezidenti Barak Obamanı tənqid edən müsahibəsi haqda sual verib. Yazıçı belə bir müsahibə vermədiyini bildirib. Amma De Benedetti saxta müsahibələri qonorar xatirinə yazdığını inkar edir. Deyir ki, sadəcə, italyan mətbuatının nə dərəcədə zəif olduğunu göstərmək istəyib:

“İtaliya mətbuatı heç vaxt heç nəyi yoxlamır. Xüsusən də əgər yalan xəbər onların qəzetinin siyasi xəttinə uyğundursa. Məhz buna görə sağçı qüvvələrə yaxın “Libero” qəzetinin Roth-un Obamanı tənqid etməsindən xoşu gəlmişdi”.

**YENİ MEYDAN**

Müsahibə qalmaqalından sonra ifşa olunan De Benedetti “qəhrəmanlıqları üçün” yeni meydan axtarıb tapır – İnternet. O, email-lə “Umberto Eco” imzası ilə “International Herald Tribune” qəzetinə (The New York Times Company-yə məxsus beynəlxalq qəzet) Liviya müharibəsini tənqid edən yazı göndərir. “Məqaləni çap edəndən sonra zəng edib onlara yazının saxta olduğunu dedim”, – deyə De Benedetti bildirir.

De Benedetti hazırda öz “işlərini” davam etdirir.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Kurslara gedən zibilli yol




*16.05.2012. Bakı. Rəşid Behbudov küçəsi. Göndərdi: Xanım*

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:** efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:



Fotoqalereya

Gürcüstanda dindarlarla seksual azlıqlar arasında



Dünyada (VİDEO)

Soyuz astronavtları Beynəlxalq Kosmik Stansiyaya çatdırıb



Videolar

Gəncədə cümhuriyyət baniləri qəbiristanlıqda



Azərbaycanda (VIDEO)

Müxalifətçilər aclıq aksiyası keçirirlər



Azərbaycanda (VIDEO)

Gül Bayramından sonra güllərin aqibəti...



Dünyada (VİDEO)

Harri Kasparov diktatorlardan danışır

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**Bizimlə əlaqə:**

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz